# Milli qürurumuzun təntənəsi

**Otuz ilə yaxın bir dövrdə beynəlxalq aləm Qarabağ və ətraf rayonlarımızı Azərbaycanın ayrılmaz hissəsi kimi tanısa da, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində erməni silahlı qüvvələrinin həmin ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması vurğulansa da, Ermənistan işğalçı siyasətini davam etdirirdi. Nəhayət, ötən il sentyabrın 27-də düşmən ölkənin silahlı qüvvələri Azərbaycana qarşı təxribat törədərək, hərbi obyektləri və mülki əhalini hədəfə alandan sonra ordumuz ərazi bütövlüyümüz uğrunda əks-hücuma keçməklə tarixi torpaqlarımızı yağılardan təmizlədi. Ölkəmizin ədalətin bərpası uğrunda apardığı mübarizədə qələbəni isə silahlı qüvvələrimizin döyüş qabiliyyəti və əzmi, möhkəm maddi-texniki bazaya malik olması, ordu-xalq-lider birliyi şərtləndirdi.**

Möhtərəm Prezidentimiz İlham Əliyev sentyabrın 27-də, Vətən müharibəsi başlanan ilk saatlarda xalqa müraciətində dedi: “Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!..”.

Beləliklə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun sentyabrın 27-də Qarabağda Ermənistan silahlı qüvvələrinə qarşı başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək düşmən həm canlı qüvvə, həm də texnika baxımından böyük itkilər verdi, 5 şəhər, 4 qəsəbə və 300-ə yaxın kənd işğaldan azad edildi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz zirvələri, habelə daha 5 adsız yüksəklik geri qaytarıldı.

Noyabrın 10-da isə Azərbaycan, Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalandı. Bu bəyanata əsasən, dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana təhvil verildi. Bununla da ermənilərin “Böyük Ermənistan” və “Dağlıq Qarabağ respublikası” xülyalarına birdəfəlik son qoyuldu.

Vətən müharibəsi Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu ədalətsiz siyasi-hərbi mübarizədən qalib çıxdı. Ordumuz uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində xalqımızın birliyi, qalib Prezidentinə və qəhrəman ordumuza inamı bu tarixi qələbəni reallaşdırdı, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu bir daha təsdiq etdi.

**(ardı 2-ci səhifədə)**





# Milli qürurumuzun təntənəsi



(əvvəli 1-ci səhifədə)

İkinci Qarabağ savaşının ilk günündən sonunadək haqqın tərəfində dayanan dost, qardaş ölkələrlə bərabər, işğalçıya dəstək verən, onu silahlandıran, havadarlıq edən dövlətlər də oldu. Lakin bütün təhdidlər, hədə-qorxular xalqımızı tarixi ədalət uğrunda apardığı mübarizədən qətiyyən çəkindirmədi, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz hər gün irəli getdi, hər gün bir qələbəyə imza atdı. Dövlətimizin başçısı bu il dekabrın 6-da Qubanın Qonaqkənd qəsəbəsində yeni inşa olunan mədəniyyət evində yaradılan şəraitlə tanışlıqdan sonra sakinlərlə görüşündə həmin günləri bir daha xatırladaraq dedi: "Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi...".

Yeri gəlmişkən, qeyd edək ki, Ermənistan torpaqlarımızın 20 faizini 30 ilə yaxın bir dövrdə işğal altında saxlayarkən, təəssüf ki, münaqişənin həllinin uzanmasında bəzi beynəlxalq təşkilatlar tərəfindən məsələyə ikili standartlarla yanaşılması az rol oynamadı. Ən əsası isə münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupu öz vəzifəsinin öhdəsindən gələ bilmədi.

Bəzi həmsədrlərin ermənilərin tərəfini saxlamaları, işğal faktına göz yummaları açıq-aydın nəzərə çarpırdı. Bununla da işğalçının cəzasız qalması bölgənin təhlükəsizliyinə böyük təhlükə yaradırdı. Nəticəsiz danışıqlar, vasitəçilərin əhəmiyyətsiz, əksər hallarda isə ikili standartlara söykənən bəyanatları prosesi, necə deyərlər, ölü nöqtədən tərpətməyə imkan vermirdi. Yaranmış vəziyyət isə həm vasitəçiləri, həm də işğalçını qane edirdi. Təbii ki, Azərbaycan da öz milli məsələsi olan Qarabağ münaqişəsi ətrafında vəziyyətin sona qədər bu cür davam etməsi ilə razılaşmırdı.

Ermənistan torpaqlarımızı işğal altında saxlamaqla bərabər, təxribatçı fəaliyyətindən də əl çəkmirdi. Düşmən ölkənin təkcə müharibədən əvvəlki son iki il yarım ərzində mənfur əməllərinə qısa nəzər salsaq, bunu aydır görə bilərik. Məsələn, baş nazir Nikol Paşinyan Ermənistan parlamentinə müraciətində Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş qanunsuz rejimin danışıqlarda iştirak etməsi məsələsini qaldırmışdı. Bununla da o, danışıqların formatını şübhə altına almağa başlamış və müxtəlif tədbirlərdə bunu dəfələrlə təkrarlamışdı. Bundan başqa baş nazir seçildiyi günün səhəri Paşinyan Azərbaycanın işğal edilən Qarabağ bölgəsinə səfəri çərçivəsində Xankəndidə Azərbaycanın Şuşa şəhərinin işğalının qeyd olunmasında iştirak etmiş, burada "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsi barədə fikirlərini bölüşmüşdü. Həmçinin o, Moskvada rus-erməni iş adamları ilə görüşərkən, "Artsaxı gələcəkdə Ermənistanın bir hissəsi kimi qəbul etdiyini" açıq şəkildə söyləmişdi.

Şübhəsiz ki, belə şəraitdə Azərbaycanın yeganə yolu qəti mövqe nümayiş etdirərək münaqişənin hərbi vasitə ilə həllinə üstünlük verməsi idi. Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatları da məhz bu məntiqə əsaslandı və vəziyyətin bu yolla dəyişilməsi mümkünlüyünü sübuta yetirdi.

Artıq Vətən müharibəsindən bir il ötür. Döyüşlərdən keçən müddətdə ölkəmiz siyasi şərtləri diktə edir, regionun geosiyasi mənzərəsini sürətlə dəyişir, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan birgə bəyanata əsaslanaraq, bölgədə yeni təhlükəsizlik və əməkdaşlıq formatı yaradır. Respublikamız Qarabağ və Şərqi Zəngəzurda erməni faşizminin xaraba qoyduğu yaşayış sahələrini sürətlə bərpa edir, eyni zamanda, Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm layihələr reallaşdırır. Qısa müddət ərzində istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı və tikilməkdə olan Zəngilan və Laçın hava limanları da bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyəti və milli təhlükəsizliyinin daha da gücləndirilməsi Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən bu gün də qarşıya qoyulan əsas vəzifələrdən biridir. Buna görə hazırda silahlı qüvvələrimizin müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədilə zəruri hərbi infrastrukturun yaradılması, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlərin gerçəkləşdirilməsi daim diqqətə saxlanılır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***